Səh. 2 Övladda deputat – Azər Musaoğlu
Səh. 5 Adlarımız – fərqlənmə nişanlarımız – Afiq Muxtaroğlu
Səh. 6 Hər şey qədərində gözəldir, eləmi? – Esmira Ələkbərli
Səh. 6 Dostluq – Raul Bədəlov
Səh. 3 Dəyərlər və doğrular – Musa Hacıyev
Səh. 4 MANANA RATİANİ: “TƏHSİL NAZİRİ AYDA TƏXMİNƏN 4000 ABŞ DOLLARI ALACAQ, MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI İSƏ 600 DOLLARA QƏDƏRDİR”
Səh. 7 Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu – Aleksandre Orbeliani

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 YANVAR
2025-Cİ İL
№ 01 (218)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANDA MÜDDƏTLİ HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞ QAYDALARI DƏYİŞİB



Gürcüstanda məcburi müddətli xidmətə çağırışla bağlı yeni qaydalar 2025-ci il yanvarın 1-dən qüvvəyə minib və artıq çağırışçılar yalnız “Milli müddətli hərbi xidmət” adlandırılacaq hərbi xidmətə göndəriləcək.

Çağırış hərbi qeydiyyatda olan 18-27 yaş arası şəxslərin siyahısından yanvarın 31-nə qədər təsadüfi seçim əsasında həyata keçiriləcək.

Gürcüstanda müddətli xidmət ödənişli olmaqla məzuniyyət və istirahət günlərindən ibarət olacaq. Çağırışçı özü üçün üç xidmət variantından birini seçə bilər: döyüş bölməsində xidmət – 6 ay; mühafizə və təminat bölmələrində xidmət – 8 ay; kiçik komandir rütbəsi və müəyyən ixtisas üzrə xidmət – 11 ay.

Çağırış il ərzində mərhələli şəkildə həyata keçiriləcək. Belə ki, döyüş bölməsində xidmətə çağırış 15 aprel tarixindən başlayacaq.

Mühafizə və təminat bölmələrində xidmətə çağırış dörd mərhələdə həyata keçiriləcək: 15 mart, 1 iyun, 15 avqust və 1 noyabr tarixlərində.

Kiçik komandir rütbəsi və müəyyən ixtisas üzrə çağırış isə oktyabrın 15-də başlayacaq.

## 14 YANVAR GÜRCÜSTANDA DÖVLƏT BAYRAĞI GÜNÜDÜR



Yanvarın 14-də Gürcüstanda dövlət bayrağı günü qeyd olunur. Bayraq günü 2012-ci ildən etibarən rəsmi olaraq təntənəli şəkildə qeyd edilir.

Gürcüstanın hazırkı bayrağı 2004-cü il yanvarın 14-də parlament çoxluğu ilə Gürcüstanın Dövlət Bayrağı kimi təsdiqlənib və yanvarın 14-ü rəsmən Dövlət Bayrağı Günü elan olunub.

Qeyd edək ki, 1918-1921-ci illərdə mövcud olan Gürcüstan Demokratik Respublikasının bayrağı 1991-ci ildə Sovet İttifaqından müstəqillik əldə etmiş Gürcüstanın bayrağı statusunu davam etdirib. 2004-cü ildə isə ölkə bayrağı dəyişdirilib.

## GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ AZƏRBAYCAN SƏFİRİNİ QƏBUL EDİB



Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyevi qəbul edib. Məlumatı Gürcüstan Xarici İşlər Nazirliyi yayıb.

Məlumatda ildirilir ki, görüş çərçivəsində ikitərəfli gündəliyin cari məsələləri müzakirə edilib, xarici işlər naziri Maka Boçorişvilinin yanvarın 16-da Azərbaycana planlaşırılan rəsmi səfərinin təfərrüatlarına toxunulub. Qeyd olunub ki, tərəflər həmçinin Gürcüstan və Azərbaycan arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti, 10-cu iclasının yaxın günlərdə Bakıda keçirilməsini müzakirə ediblər.

“Tərəflər ölkələr arasında strateji tərəfdaşlığın geniş spektrini bir daha müsbət qiymətləndirdilər. Ticari-iqtisadi, nəqliyyat və enerji sahələrində uğurlu əməkdaşlığa xüsusi diqqət yetirildi. Görüşdə regionun dinc və sabit inkişafının vacibliyi qeyd edilib. Tərəflər Gürcüstan və Azərbaycan arasında mövcud nümunəvi strateji əməkdaşlığı daha da dinamikləşdirməyə hazır olduqlarını bildiriblər”, – nazirliyin məlumatında qeyd olunur.

## YANVARIN 9-U MATƏM ELAN OLUNUB



Gürcüstan hökuməti Qali rayonunun Saberio kəndində baş vermiş faciə ilə əlaqədar yanvarın 9-da matəm elan edib.

Bununla əlaqədar Baş nazir İrakli Kobaxidze sərəncam imzalayıb.

Qeyd edək ki, yanvarın 5-də Gürcüstanın Abxaziya bölgəsinin Qali rayonunun Saberio kəndində məcburi köçkün ailəsinə məxsus şəxsi evdə güclü yanğın baş verib. Nəticədə mənzildəki 5 uşaq həlak olub.



# ÖVLADDA DEPUTAT

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Gözünüz aydın! Bundan sonra hamı deputat olmaq istəyəcək. Özü deputat ola bilməyənlər də dəridən-qabıqdan çıxacaqlar ki, uşaqları deputat olsun. Uşaqları deputat ola bilməyənlər nəvələrini-nəticələrini deputat görmək üçün ömrü uzadan bütün üsullara, dietalara, məşqlərə, dərmanlara, türkəçarələrə əl atacaqlar. "Nəvənin toyunu gör" alqışı dönüb olacaq "nəvəni deputat gör". Hamı çalışacaq atasının, babasının "xalqa xidmət edən" yolu ilə getsin. Deputatlıq əldən verilməyəcək, atadan oğula, oğuldan nəvəyə ötürüləcək. "Dövlətdə dəvə, övladda nəvə" dönüb olacaq "dövlətdə at, övldadda deputat". Yaşamaq uğrunda mübarizə deyəndə deputatlıq uğrunda mübarizə nəzərdə tutulacaq. Deputat olanlar öz deputat mandatlarından dördəlli yapışacaqlar, xəstəlik zamanı da, qocalıqda da öz deputat kreslolarından ayrı durmayacaqlar ki, birdən kimsə yerlərinə göz dikər, kimsə deputatlığ arzusuna düşər. Bir sözlə, deputat olmaq ən böyük arzu, deputatlıqdan əl çəkmək ölüm-qalım məsələsinə çevriləcək.

Bəzən gələcəkdə lazım olmayacaq peşələr haqqında yazılarla qarşılaşırıq. Proqnozlar verirlər ki, texnologiyanın inkişafı ilə, süni intellektin təkmilləşməsi ilə əlaqədar inkişaf etmiş ölkələrdə gələcəkdə bəzi peşələr sıradan çıxacaq, lazım olmayacaq. Bizdə isə yaxın gələcəkdə müəllim, həkim, baytar, mühəndis, tərcüməçi, aşbaz, çörəkçi, bərbər, bənna, rəngsaz, qaynaqçı, rəssam, aktyor, rejissor, bəstəkar və bu kimi peşələr sıradan çıxacaq, yox olacaq. Saçımızı kəsdirməyə adam tapmayacağıq, maşınımızı təmir etdirmək üçün usta olmayacaq, evimizin divarını boyatmaq üçün rəngsazı Avropadan-zaddan çağıracağıq və sair.

Niyə? – Çünki hamı deputat olmaq istəyəcək.

Niyə hamı deputat olmaq istəyəcək? – Çünki 4624 lari maaş alan parlament deputatları yanvarın 1-dən 11680 lari maaş alacaqlar. Təsəvvür edirsinizmi, bir ay ölkənin ən gözəl yerində, ən təhlükəsiz yerində, yayda sərin, qışda isti yerində, ən rahat kreslolarda oturub, telefonda oyun oynayıb, mürgü döyüb on bir min altı yüz səksən lari maaş alırsan (bunun hələ "premiya"sı-zadı da var), yəni sənin bir ayda aldığın əməkhaqqı 600 lari olan adam 19 aydan çox işləməlidir, zəhmət çəkməlidir, tər tökməlidir ki, yığa bilsin. O da xəstəlik, kommunal vergilər, kredit borcu, yemək-içmək, əyin-baş imkan versə...

İndi siz özünüz deyin, kim 11680 larini qoyub bir ay 600 lariyə işləyər? Kim 11680 larini qoyub bir ay onun-bunun uşağının nazı ilə oynayaraq soyuq sinif otaqlarında müəllimlik edərək ömür çürüdər? Bağçalarda 600-700 lariyə bir ay onun-bunun uşağının panpersini dəyişər? Kim 11680 larini qoyub ayı yarılamamış qurtaran əməkhaqqı üçün həkimlik edər, aktyorluq edər, fəhləlik edər. Əlbəttə, ağlı başında olan heç kim. Zarafat deyil, ayda 11680 lari maaş ildə bir evin puludur.

Amma adam gərək birini deyəndə o birini də desin. Əlbəttə, heç kəs görülən işləri, edilən yaxşılıqları gizlədə, dana bilməz. Sağ olsun hökumətimiz, pensionerləri də yaddan çıxarmayıb, yanvarın 1-dən pensiyaları 35 lari artırıb. 315 lari pensiya alanlar indi 350 lari alacaqlar, yaşı 70-dən yuxarı olan pensionerlər isə 415 lari əvəzinə 450 lari alacaqlar. Bilməyənlər üçün onu da deyim ki, sosial vəziyyətə görə uşaqlar ayda 200 lari, ailə başçısını itirənlər 100 lari, əlilliyi olan insanlar 195 lari, 18 yaşa qədər əlilliyi olanlar 390 lari, müharibə iştirakçıları 100 lari, qaçqınlar 45 lari alırlar. Heç kim yaddan çıxarılmayıb yəni.

İndi deyəcəksiniz, niyə elə deputatların maaşı girdi gözə, hamı deputatların maaşlarının çoxluğundan danışır. Niyə baş nazirin, prezidentin, parlament sədrinin maaşının 14600 lari, nazirlərin maaşının 12410 lari, nazir müavinlərinin maaşının 10585 lari, MSK rəhbərinin maaşının 12410 lari, pensiya agentliyinin direktorunun maaşının 14500 lari, parlament sədrinin birinci müavininin maaşının 13432 lari, komitə sədrinin maaşının 12410 lari, fraksiya sədrinin maaşının 12410 lari olmasını gözə soxan yoxdur... Əşşi, mən nə bilim.

Belə ki, əzize-mənlər, hazırlaşın, innən belə ölkədə hamı deputat olmaq istəyəcək, deputat kimi maaş almaq, deputat kimi yaşamaq arzulayacaq. Deputat mandatı üstündə mübarizə gedəcək, evini, obyektini satıb mandata maya qoyana bax, mandat uğrunda adam satana bax, şər atana bax, işverənə bax, ləkə yaxana bax – bütün bunlara hazır olmaq lazımdır.

Deyirəm, kaş deputatların maaşının artırılmasını gizlin saxlayaydılar. Gözə gələcəklər. Bir də ki, bəlkə hələ də müəllim, həkim, baytar, mühəndis, tərcüməçi, aşbaz, çörəkçi, bərbər, bənna, rəngsaz, qaynaqçı, rəssam, aktyor, rejissor, bəstəkar olmaq istəyən uşaqlar var, fikirlərini dəyişməsinlər.

# DONALD TRAMPIN PREZİDENTLİYİNİN GÜRCÜSTAN, QAFQAZ VƏ ORTA ASİYA ÖLKƏLƏRİNİN İQTİSADİYYATINA POTENSİAL TƏSİRLƏRİ



Donald Tramp 2017-2021-ci illər arasında ABŞ prezidenti olduğu dövrdə xarici siyasətdə və iqtisadi əlaqələrdə yeni yanaşmaları ilə seçildi. Onun "Öncə Amerika" (America First) şüarı ticarət və iqtisadi əlaqələrin ABŞ-nin maraqlarına uyğun olaraq tənzimlənməsi strategiyasına əsaslanırdı. 2025-ci ildə Tramp yenidən prezident olduqdan sonra, bu yanaşmanın yenidən gündəmə gəlməsi və Gürcüstan, Qafqaz ölkələri və Orta Asiya regionunda iqtisadi dinamikaya təsir etməsi gözləniləndir.

Trampın ilk prezidentliyi dövründə ABŞ-nin xarici siyasətində prioritet dəyişikliklər edildi. Bu yanaşma əsasən ticarət münasibətlərinə və NATO kimi alyansların yenidən dəyərləndirilməsinə yönəldi. ABŞ-nin postsovet məkanına təsirləri daha çox Rusiya ilə bağlı məsələlərdə ortaya çıxdı. Tramp administrasiyası Rusiyanın Ukrayna ilə bağlı siyasətinə sərt münasibət sərgiləsə də, eyni zamanda Moskva ilə münasibətləri yaxşılaşdırmaq üçün bəzi addımlar atmaq istəyirdi. Bu yanaşma Gürcüstan və digər Qafqaz ölkələri üçün bəzi qeyri-müəyyənliklər yaratmışdı.

Orta Asiya ölkələri ilə münasibətlər isə daha çox iqtisadi əməkdaşlıq və Çinin artan təsirini balanslaşdırmaq məqsədinə fokuslanmışdı. ABŞ Orta Asiyada enerji resurslarına çıxışı təmin etməyə və Çin tərəfindən həyata keçirilən "Bir Kəmər, Bir Yol" təşəbbüsünə alternativlər yaratmağa çalışırdı.

Gürcüstan son baş verən anlaşılmazlıqlara rəğmən ABŞ-nin Cənubi Qafqazda əsas müttəfiqlərindən biri olaraq qalır. Tramp administrasiyasının ilk dövründə Gürcüstana hərbi dəstək artdı. Trampın yenidən prezident seçilməsindən sonra onun Gürcüstana dəstəyinin hərbi sahədə güclənməsi gözlənilə bilər. Bu, regionun sadəcə təhlükəsizliyini artırmağa yönələn məqsəd olacaqdır.

İqtisadi baxımdan Gürcüstan ABŞ ilə azad ticarət sazişi əldə etməyə ümid edir. Trampın proteksionist yanaşmaları belə bir sazişi çətinləşdirə bilər. Bununla yanaşı, ABŞ-nin Gürcüstanda enerji və infrastruktur layihələrinə investisiyalarının artması ehtimalı da mövcuddur. ABŞ-nin regiona olan marağı əsasən Qafqaz ölkələrinin Avropa və Asiya arasında tranzit rolu ilə əlaqədardır.

Orta Asiya ölkələri üçün ABŞ-nin siyasəti daha çox enerji resursları və regional sabitliklə bağlıdır. Trampın ilk prezidentliyi dövründə Orta Asiya ilə əlaqələrə kifayət qədər diqqət yetirilmədi, lakin Çin və Rusiyanın artan təsiri ABŞ-nin bu regionda fəallığını artırmasına təkan verə bilər. Trampın ikinci dövr prezidentliyi ABŞ-nin Orta Asiya ölkələri ilə əməkdaşlığını genişləndirmək üçün aşağıdakı istiqamətlərdə addımlar ata biləcəyi ehtimal olunur:

1. Enerji sahəsində əməkdaşlıq: ABŞ Orta Asiya ölkələrinin neft və qaz ehtiyatlarına çıxışı artırmaq məqsədilə birbaşa investisiyalar edə bilər. Bu, xüsusilə Qazaxıstan və Türkmənistan kimi ölkələr üçün əhəmiyyətli olacaq.
2. Çinin böyükmiqyaslı təsirinə qarşı alternativ: ABŞ regionda Çinin artan iqtisadi təsirini balanslaşdırmaq üçün yeni ticarət və infrastruktur layihələri təklif edə bilər.
3. Təhlükəsizlik və sabitlik: Əfqanıstanın sabitliyi kontekstində Orta Asiya ölkələri ilə təhlükəsizlik sahəsində əməkdaşlıq güclənə bilər.

Trampın proteksionist yanaşması ABŞ-nin Gürcüstan və Orta Asiya ölkələrinə birbaşa iqtisadi dəstəyini məhdudlaşdıra bilər. ABŞ-nin regionda daha çox ticarət və investisiya imkanları yaratması üçün çoxtərəfli razılaşmalar vacibdir, lakin Tramp bu tip razılaşmaları nadir hallarda dəstəkləyir.

Digər tərəfdən, ABŞ-nin Gürcüstan və Orta Asiya ölkələrində enerji, infrastruktur və təhlükəsizlik sahələrinə investisiya qoyması regional iqtisadi inkişafı gücləndirə bilər. Bu, Rusiya və Çin ilə rəqabəti artıraraq həmin ölkələrin siyasi və iqtisadi qərarlarına təsir edə bilər.

Nəticə olaraq onu deyə bilərik ki, Trampın ikinci prezidentliyi dövrü Gürcüstan, Qafqaz və Orta Asiya ölkələri üçün həm imkanlar, həm də çətinliklər gətirə bilər. Onun yenidən seçilməsi ilə ABŞ-nin regiona marağı daha çox strateji məqsədlərlə məhdudlaşa bilər və iqtisadi əməkdaşlıqda ciddi dəyişikliklərin baş verməsi ehtimalı azdır. Hər halda, Trampın siyasətinin əsas məqsədi ABŞ-nin və amerikanların maraqlarını qorumaq olacaq, bu isə region ölkələrinin qərarlarına və iqtisadi strategiyalarına az da olsa təsir edə bilər.

***Səlahəddin PİRİYEV***

# QƏLBİN DONMUŞ QÖNÇƏLƏRİ



Ötən günlərdə Tbilisiyə ilk qar yağdı. Səhərin ilk saatları olduğundan hələ şaxta var idi. Qalxıb pəncərədən həyətə baxdım. Eyvana çıxıb baxa-baxa düşünürdüm ki, qar yağdı, ancaq mən evdən çıxıb şəkil çəkməyə ərincəklik edirəm, bir azdan da əriyib suya dönəcək. Bu an diqqətimi binamızın önündəki hər fəsil yamyaşıl qalan qızılgül kolu cəlb etdi. Gecədən yağan qar qızılgül kolunun üzərinə tökülmüş və şaxta olduğundan donmuşdu. Sevindiyimdən ərincəklik etməyin başını buraxıb, telefonumu götürüb aşağı düşdüm. Gördüyüm mənzərə gözəlliyindən əlavə məni həm sevindirdi, həm də məyus etdi. Balaca bir qızılgül kolu eyni anda iki hissi yaşamağıma səbəb oldu. Qarışıq hiss keçirməyimə səbəb buza əsir düşmüş qızılgülün ağ qönçəsi idi. Bu qönçəni çəkmək çox çətin idi. Çünki qızılgül kolunun üzərinə o qədər su axmışdı ki, gövdəsi tab gətirə bilməyib yerə yapışmışdı. Qönçəni çəkmək üçün budaqları tərpətmək lazım idi. Tərpətsəydim buz dənəcikləri qırılıb töküləcəkdi. Bir çarəsini tapıb şəkli çəkməyi bacarmadım. Amma o mənzərə mənə həyatla bağlı yeni bir dərs öyrətdi. Qısası, qızılgül kolunu və qönçəsini ətrafımızdakı çörək kəsib itirən dostlara bənzətdim. O dostlara ki, saf sevgi dolu qəlbinizi bu buz bağlamış qönçəyə çevirirlər.

Həyat bəzən bizi də eyni qızılgül kimi dondurur, emosiyalarımızı, sevgimizi, mərhəmətimizi qışın soyuğu altında gizlədir. Amma unutmamalıyıq ki, buz hər zaman əriyir. İnsanlar bir-birinə sevgi və anlayışla yanaşarsa bu buzlar daha tez yox olur. Bu mənzərə mənə həyatda daima empatiyanın vacibliyini xatırlatdı. Qızılgül kolunun həyatla mübarizəsi kimi, insanlar da bəzən qəlblərindəki dondurulmuş hissləri qırıb yenidən dirçəlməli olurlar...

Suriyada ölən insanlara, körpələrə, köçkünlərə bənzətdim. Dənizlərin buzlu soyuq sularında cəsədləri yoxa çıxan dənizçilərə, onların ailələrinə bənzətdim. Gözlərini dünyaya təzəcə açmış, amma ata-anası tərəfindən qutuya qoyulub zibilliyə atılan bədəni buz parçası kimi soyuq kəsmiş körpələrə bənzətdim... Ölərkən belə cəsədin buz kimi olduğunu deyirlər. Təəssüf olsun ki, hara baxdımsa vücudları buz parçasının əsarətə aldığını gördüm.

İnsanlığı buz bağlamış qönçə kimi təsəvvür etdim. Ancaq hər birimiz qəlbimizdə sevgi işığını alovlandırsaq bu buzları əritməyə qadir olarıq. İnsanlar bir-birinə mərhəmətlə yanaşdıqda dünya daha yaxşı yerə çevrilir. Dondurulmuş hisslər, acılar və itkilər bu sevgi və anlayışın gücü ilə əriyir.

Unutmayaq ki, ətrafımızda dondurulmuş duyğular və qırılmış ümidlər çoxdur. Amma hər birimiz buzları əridə biləcək bir Günəş ola bilərik. İnsanlığı itirməmək üçün saf sevgimizi və mərhəmətimizi yaşatmalıyıq. Çünki insanlıq yalnız bu keyfiyyətlərlə mövcuddur və inkişaf edir...

Həmin mənzərə beynimdən getmirdi. Buz bağlamış kiçik gölməçələr, donmuş ağac budaqları, nəfəsimdən havada yaranan buxar... Amma ən çox məni düşündürən, insanların bu buz bağlamış dünyada necə davam gətirə bilməsi idi. Bəlkə də biz hamımız görünməz buz təbəqəsinin altında yaşayırıq – hisslərimizi, xəyallarımızı donduraraq, hər gün bu soyuqluğa öyrəşərək...

Axşam qaranlıq çökəndə işdən evə qayıdırdım. Şəhərin işıqları yanmağa başlamışdı. Küçədən keçən insanlara baxdım: hər biri tələsir, kimisi işdən evə dönür, kimisi harasa çatmağa çalışırdı. Amma onların gözlərindəki ifadələrdə qəribə bir boşluq hiss olunurdu. Sanki bu insanlar da artıq ruhlarını bu soyuqdan qorumaq üçün dondurmuşdular. Düşündüm: soyuq bizim yalnız ətrafımızı deyil, içimizi də bürüyüb.

Hər şey bizim seçimimizdən asılıdır: buz kimi olmaq, yoxsa buzları əridən bir nəfəs kimi yaşamaq.

Bəlkə də buz bağlamış dünyanı dəyişdirmək üçün hər birimiz kiçik bir işıq yandırmalıyıq. Bir az sevgi, bir az mərhəmət... Bu, buzları əridən ən güclü silahımızdır. Vücudunuzu və ruhunuzu buz parçasının əsarətindən qurtarın!

*Aytən FƏTULLAYEVA*
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

# DƏYƏRLƏR VƏ DOĞRULAR



**Musa HACIYEV**
haciyevmusa @hotmail.com

Dəyərlər və doğrular cəmiyyətin mənəvi təməllərini təşkil edən və insan davranışlarını istiqamətləndirən əsas prinsiplərdir. Bu anlayışlar insan həyatının hər mərhələsində mühüm rol oynayır və fərdlərin şəxsi, ailəvi və ictimai münasibətlərində özünü büruzə verir.

Dəyərlər bir fərd və ya cəmiyyət üçün əhəmiyyətli olan, davranış və qərar vermə proseslərinə rəhbərlik edən ideallardır. Onlar əxlaqi prinsiplərə, inanclara və adət-ənənələrə əsaslanır. Dəyərlər zamanla inkişaf edə bilər, lakin onların əsasında insanın ruhuna və vicdanına bağlılıq dayanır. Ən əsas dəyərlərə bunlar daxildir:

- Ədalət: Hər kəsin haqqını qorumaq, düzgünlüyə sadiq qalmaq;
- Səmimiyyət: Həqiqətə əsaslanaraq ikiüzlülükdən uzaq olmaq;
- Sevgi və mərhəmət: İnsanlara qarşı şəfqətli və anlayışlı olmaq;
- Ailə bağları: Yaxınlara bağlılıq və onların rifahını düşünmək.

Bunlarla bərabər, bu gün çox ehtiyacımız olan doğrular da vardır. Doğrular isə fərdin və ya cəmiyyətin həyatında qəbul etdiyi, tətbiq etdiyi qaydalar və prinsiplərdir. Doğrular bizi mənəvi inkişaf yoluna yönəldir və dəyərlərimizin gündəlik həyatda necə tətbiq olunacağını göstərir. Doğru olanı seçmək insanın məsuliyyətini artırır və eyni zamanda onu daxili rahatlıqla təmin edir.

Dəyərlərin və doğruların qorunması, onların növbəti nəsillərə ötürülməsi hər bir cəmiyyət üçün həyati əhəmiyyət kəsb edir. Qloballaşma və texnoloji inkişaf insanlara müxtəlif mədəniyyətlərdən təsirlər gətirsə də, milli və mənəvi dəyərlərimizi unutmamaq vacibdir. Mənəvi boşluq içində böyüyən cəmiyyətlər adətən öz tarixi köklərindən uzaqlaşır və bəzən özlərini təcrid olunmuş hiss edirlər.

Dəyərlərimizin qorunması üçün aşağıdakılar vacibdir:

1. Təhsil: Gənc nəsillərə düzgün tərbiyə və mənəvi biliklərin ötürülməsi.
2. Adət-ənənələrin yaşadılması: Ailələrdə bayramlar, xeyriyyə tədbirləri və dini mərasimlər vasitəsilə bu prinsiplərin tətbiqi.
3. Müsbət nümunələr: Cəmiyyətdə dəyərləri yaşadan insanların nümunə olaraq göstərilməsi.

Dəyərlərin unudulması cəmiyyətdə anarxiyaya, mənəvi boşluğa və qarşılıqlı anlaşılmazlığa səbəb ola bilər. Bu, ailə birliyinin zəifləməsi, dostluq münasibətlərinin sarsılması və insanın daxili mənəviyyatının itirilməsi ilə nəticələnir.

Həyatın mənası və insanın mənəvi gücü dəyərlərə və doğrulara olan bağlılıqda gizlənib. Hər bir fərd özündən başlayaraq, ailəsində və cəmiyyətində dəyərləri yaşatmalı və gələcək nəsillərə örnək olmalıdır. Beləcə, dəyərlərimiz işıq saçaraq, bizi doğru yola yönəldən mənəvi bələdçimiz olacaqdır.

# MANANA RATİANİ: "TƏHSİL NAZİRİ AYDA TƏXMİNƏN 4000 ABŞ DOLLARI ALACAQ, MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI İSƏ 600 DOLLARA QƏDƏRDİR"



Təhsil üzrə mütəxəssis, İlia Dövlət Universitetinin professoru Manana Ratiani sosial şəbəkədə Gürcüstanın təhsil sisteminin problemlərindən biri olan əməkhaqqı siyasəti haqqında yazıb:

"Etiraza (seçkilərin yenidən keçirilməsi, ədalətsiz olaraq həbs olunanların azad edilməsi tələbindən başqa) niyə qoşulduğumu dəqiq qeyd etmək istəyirəm. Bu gün təhsilin problemlərindən biri haqqında yazacam:

Gürcüstanda təhsil naziri ayda təxminən 4000 ABŞ dolları alacaq, müəllimlərin əməkhaqqı isə 600 dollara qədərdir.

Direktorların orta əməkhaqqı əksər hallarda müəlliminkindən azdır. Texniki heyətin əməkhaqqı lap aşağıdır. Nazirin əməkhaqqı təqaüdə çıxmış müəllimin ayda alacağı məbləğdən çox, yəni gündə 376 laridir.

Niyə susmamalıyıq?

Büdcənin pulundan şəxsi privilegiyaları üçün istifadə edən, eyni zamanda qeyri-bərabərliyi inkişaf etdirən və ictimaiyyət qarşısında hesabat verməli olduğunu düşünməyən rejim formalaşıb.

Əgər bizdə müəllim və nazirin əməkhaqqı arasındakı nisbət 1:6,8-dirsə, İrlandiyada bu fərq minimal, 1:1,9-dur. Bu, daha ədalətli və bərabər sistemin göstəricisidir. Avropa ölkələrində əməkhaqqının bərabərsizliyi ilə bağlı kifayət qədər yüksək həssaslıq var. Bu, Gürcüstan üçün nümunə olmalıdır.

Biz seçkilərin təkrar keçirilməsindən sonra tələb etməliyik:

- Ədalətli əməkhaqqı siyasəti;
- Müəllim və direktorların işinin layiqli qiymətləndirilməsi;
- Məktəblərə daha çox muxtariyyət;
- Büdcə xərclərinin şəffaflığı.

Unutmamalıyıq ki, bir ildən çoxdur nazirlik əməkhaqqının artırılmasını anons edirdi. Həqiqətdə isə artım yalnız bir kateqoriyaya, baş müəllimlərə toxunub. 20 minə yaxın ibtidai sinif, eləcə də aparıcı və mentor müəllim artımdan kənar qalıb. Müəllimlər bir-birinə qarşı çıxdı, çünki artıma dərs saatları səbəb olub. Bu, həmçinin gənc müəllim olmaq istəyənlər üçün qapını bağladı. Rəhbərlik və texniki heyətin əməkhaqqının artması yalnız 10 % təşkil edib.

Nazirlik bununla da kifayətlənmədi və ictimaiyyət tərəfindən narazılığı örtmək üçün məktəb direktorlarından minnətdarlıq postu yazmağı tələb etdi.

Başqa problemlər haqqında da mərhələli şəkildə yazacam. Çünki İctimai kanalda bu kimi ictimaiyyət üçün aktual problemlərə efir vermirlər. Ona görə də hamı Uznadze 52-də, qapalı qapı arxasında nə baş verdiyini, necə ədalətsiz qərarlar qəbul edildiyini bilmir".

# BİR ŞAGİRDƏ DÜŞƏN MALİYYƏ NORMASINA UYĞUN OLAN STANDART VAUÇER ƏMSALLARI YENİDƏN MÜƏYYƏN EDİLİB

Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin qərarına əsasən, "Ümumi təhsilin maliyyələşdirilməsi üçün bir şagirdə düşən maliyyə normasının və müvafiq standart vauçerin məbləğinin müəyyən edilməsi haqqında" qanunda dəyişiklik edilib. Dəyişikliyə əsasən, 2025-ci il yanvarın 1-dən bir şagirdə düşən maliyyə normasına uyğun olan standart vauçer əmsalları aşağıdakı kimi müəyyən edilib:

**1-ci sinifdən 8-ci sinfə qədər:**

ა.ა) Şagirdlərinin sayı 170-dən 205-ə qədər olan ictimai məktəblər üçün – 1,35;

ა.ა1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 170-dən 205-ə qədər olan ictimai məktəblər üçün – 2,20;

ა.ბ) Şagirdlərinin sayı 206-dan 299-a qədər olan ictimai məktəblər üçün – 1,25;

ა.ბ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 206-dan 299-a qədər olan ictimai məktəblər üçün – 2,05;

ა.გ) Şagirdlərinin sayı 300-dən 530-a qədər olan ictimai məktəblər üçün – 0,95;

ა.გ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 300-dən 530-a qədər olan ictimai məktəblər üçün – 1,50;

ა.დ Şagirdlərinin sayı 531-dən 735-ə qədər olan ictimai məktəblər üçün – 0,85;

ა.დ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 531-dən 735-ə qədər olan ictimai məktəblər üçün – 1,40;

ა.ე) Şagirdlərinin sayı 736-dan 1269-a qədər olan ictimai məktəblər üçün – 0,75;

ა.ე1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 736-dan 1269-a qədər olan ictimai məktəblər üçün – 1,20;

ა.ვ) Şagirdlərinin sayı 1269-dan artıq olan ictimai məktəblər üçün – 0,70;

ა.ვ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 1269-dan artıq olan ictimai məktəblər üçün – 1,05.

**İctimai məktəbin 9-cu sinfindən 12-ci sinfinə qədər:**

ბ.ა) Şagirdlərinin sayı 170-dən 205-ə qədər olan ictimai məktəblər üçün – 1,45;

ბ.ა1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 170-dən 205-ə qədər olan ictimai məktəblər üçün – 2,40;

ბ.ბ) Şagirdlərinin sayı 206-dan 299-a qədər olan ictimai məktəblər üçün – 1,35;

ბ.ბ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 206-dan 299-a qədər olan ictimai məktəblər üçün – 2,25;

ბ.გ) ) Şagirdlərinin sayı 300-dən 530-a qədər olan ictimai məktəblər üçün – 1,05;

ბ.გ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 300-dən 530-a qədər olan ictimai məktəblər üçün – 1,70;

ბ.დ) Şagirdlərinin sayı 531-dən 735-ə qədər olan ictimai məktəblər üçün – 0,95;

ბ.დ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 531-dən 735-ə qədər olan ictimai məktəblər üçün – 1,60;

ბ.ე) Şagirdlərinin sayı 736-dan 1269-a qədər olan ictimai məktəblər üçün – 0,85;

ბ.ე1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 736-dan 1269-a qədər olan ictimai məktəblər üçün – 1,40;

ბ.ვ) ) Şagirdlərinin sayı 1269-dan artıq olan ictimai məktəblər üçün – 0,80;

ბ.ვ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 1269-dan artıq olan ictimai məktəblər üçün – 1,25;

4. Bir şagirdə düşən maliyyə normasına uyğun olan standart vauçer, bir şagirdə düşən əsas maliyyə normasının və müvafiq əmsalın hasili ilə müəyyən edilərək aşağıdakı miqdarda təsdiq edilsin:

**İctimai məktəbin 1-ci sinfindən 8-ci sinfinə qədər:**

ა.ა) Şagirdlərinin sayı 170-dən 205-ə qədər olan ictimai məktəblər üçün – 405 lari;

ა.ა1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 170-dən 205-ə qədər olan ictimai məktəblər üçün – 660 lari;

ა.ბ) Şagirdlərinin sayı 206-dan 299-a qədər olan ictimai məktəblər üçün – 375 lari;

ა.ბ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 206-dan 299-a qədər olan ictimai məktəblər üçün – 615 lari;

ა.გ) Şagirdlərinin sayı 300-dən 530-a qədər olan ictimai məktəblər üçün – 285 lari;

ა.გ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 300-dən 530-a qədər olan ictimai məktəblər üçün – 450 lari;

ა.დ) Şagirdlərinin sayı 531-dən 735-ə qədər olan ictimai məktəblər üçün – 255 lari;

ა.დ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 531-dən 735-ə qədər olan ictimai məktəblər üçün – 420 lari;

ა.ე) Şagirdlərinin sayı 736-dan 1269-a qədər olan ictimai məktəblər üçün – 225 lari;

ა.ე1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 736-dan 1269-a qədər olan ictimai məktəblər üçün – 360 lari;

ა.ვ) Şagirdlərinin sayı 1269-dan artıq olan ictimai məktəblər üçün – 210 lari;

ა.ვ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 1269-dan artıq olan ictimai məktəblər üçün – 315 lari;

**İctimai məktəbin 9-cu sinfindən 12-ci sinfinə qədər:**

ბ.ა) Şagirdlərinin sayı 170-dən 205-ə qədər olan ictimai məktəblər üçün – 435 lari;

ბ.ა1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 170-dən 205-ə qədər olan ictimai məktəblər üçün – 720 lari;

ბ.ბ) Şagirdlərinin sayı 206-dan 299-a qədər olan ictimai məktəblər üçün – 405 lari;

ბ.ბ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 206-dan 299-a qədər olan ictimai məktəblər üçün – 675 lari;

ბ.გ) Şagirdlərinin sayı 300-dən 530-a qədər olan ictimai məktəblər üçün – 315 lari;

ბ.გ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 300-dən 530-a qədər olan ictimai məktəblər üçün – 510 lari;

ბ.დ) Şagirdlərinin sayı 531-dən 735-ə qədər olan ictimai məktəblər üçün – 285 lari;

ბ.დ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 531-dən 735-ə qədər olan ictimai məktəblər üçün – 480 lari;

ბ.ე) Şagirdlərinin sayı 736-dan 1269-a qədər olan ictimai məktəblər üçün – 255 lari;

ბ.ე1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 736-dan 1269-a qədər olan ictimai məktəblər üçün – 420 lari;

ბ.ვ) Şagirdlərinin sayı 1269-dan artıq olan ictimai məktəblər üçün – 240 lari;

ბ.ვ1) Dağlıq məntəqələrdə yerləşən, şagirdlərinin sayı 1269-dan artıq olan ictimai məktəblər üçün – 375 lari".

***Səhifədəki məlumatlar "edu.aris.ge" saytından götürülüb.***
***Gürcü dilindən tərcümə etdi Aynurə ƏLİYEVA***

# ADLARIMIZ – FƏRQLƏNMƏ NİŞANLARIMIZ



*(Tarixi-etnoqrafik qeydlər. 2-ci yazı)*

Əsas mövzumuza keçməmişdən qabaq əski türk xalqlarında şəxsin bir neçə ada malikliyi barədə az-çox məlumatımız olduğunu bir daha vurğulayaq. Ailədə verilən addan sonra şəxsin cəmiyyətdə göstərdiyi hünərə, bacarığa uyğun ad qazanması vacib şərtlərdən idi. O üzdən ki, ikinci və hətta daha çox ad qazanması şəxsin cəmiyyətdə yüksəlişinin, hörmət sahibi olmasının, fikrimizcə, onun sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşmasının təminatçısı olurdu. Tayfa ağsaqqalından aldığı, ola bilsin ki, tayfa başçısının və ya tayfanın bu işlə məşğul olan xüsusi şurasının təsdiqlədiyi ikinci ad ailədə verilən adı unutdurur, şəxs cəmiyyətdə qazandığı yeni adıyla tanınmağa başlayır, sosial iyerarxiya pillələrində onun irəliləməsinə yardım edirdi.

İnsanın ilk adı, elə sonradan qazandığı ikinci adı qədər ayaması, ləqəbi də onun həyatının biçimlənib şəkillənməsində mühüm əhəmiyyətə malikdir. Ləqəblər şəxsin fərqləndirici xarici əlamətlərinə, mənəvi dünyasına xas olan xarakterik cəhətlərinə, eləcə də peşəsinə görə kənar müşahidəçilər tərəfindən verilir, bəzi hallarda isə özünün şəxsi istəyi ilə qəbul edilir, əksər vaxtlarda rəsmi ad yaddan çıxır və şəxs ləqəbiylə, ayamasıyla tanınırdı. Həmin ləqəbi səsləndirmək kifayət edirdi ki, söhbətin kimdən getdiyi bəlli olsun.

Adın dəyişdirilməsinin və ya şəxsin başqa adla çağrılmasının digər bir səbəbi də var idi. Cılız, tez-tez xəstələnən uşaqlar ad dəyişiminə məruz qalırdılar. Belə uşaqların "cin dəyməsinə", "şəpənin vurmasına", "bədnəzərə gəlmələrinə" inanırdılar. Uşaqları bu bəlalardan xilas etməyin əsas yöntəmlərindən biri onların adlarının dəyişdirilməsi, yeni fərqli bir adla çağırılmaları idi. Görünür əski insanlar bununla şər qüvvələri çaşdıracaqlarını, onların uşağı yeni adıyla tanımayacaqlarını düşünürmüşlər.

İndi isə ad seçiminə diqqət yetirməmiz gərəkdir ki, bəhs etdiyimiz mövzunun bütövlüyünü təmin edə bilək.

Uşağa ad seçərkən, əski türk xalqları, gümanımızca, dağa-daşa düşməmiş, çətinlik çəkməmişlər. O üzdən ki, adqoyma yaranmış, artıq oturuşmuş ənənələrlə həyata keçirilirdi. İlk öncə, yeni doğulmuşa vermək üçün ailənin özünəməxsus hazır, dədə-baba adları var idi. Ailə başçısının tövsiyəsiylə bu adlardan uyğun gələn birini uşağa verirdilər və bu məsələ asanlıqla həllini tapırdı. Bəzən hələ uşaq dünyaya gəlməmişdən ailədə onun hansı adı daşıyacağı bəlli olurdu. Sadəcə bu ad uşağın cinsinə görə dəyişə bilərdi.

Uşağın hansı fəsildə, günün hansı qismində doğulması, necə bir havada dünyaya gəlməsi də adqoyma mərasimində müstəsna rola malik idi. Qədim türk düşüncəsinin gerçəkliklə bağlılığını nəzərə alsaq adqoyma prosesinin bu təbii hadisələrlə əlaqəsini üzərə çıxara bilərik.

Əski əcdadlarımız qutlu-müqəddəs saydıqları səma cisimlərinin adlarını uşaqlarına verməklə həmin planetin himayəsində olacaqlarını, eləcə də onların xüsusiyyətlərinə sahib olacaqlarını güman edirdilər və cinsindən asılı olaraq, yeni doğulmuşlara ad seçirdilər. Ən çox müraciət edilən Ayla, Günəşlə, ulduzlarla bağlı adlardan bu məqsədlə geninə-boluna istifadə olunurdu.

Yuxarıda ötəri də olsa vurğuladığımız gerçəkçi, praktik türk düşüncəsi uşaq doğulduğu saatda havanın necə keçməsindən də adqoymada yararlanmış, yeni doğulmuş uşağa Qaryağdı, İldırım kimi adlar vermişdir.

Uşağın doğulduğu məkanın, coğrafi mühitin də adqoyma adətlərimizdəki rolu danılmazdır. İnsanlar onları əhatə edən, fasiləsiz yaşayış nəticəsində doğma yurda çevrilən, vətənləşən və onların dünyagörüşündə müqəddəslik qazanan dağ, dəniz, çay, hətta binə, kənd, şəhər adlarını uşaqlarına verməkdən məmnunluq duymuş, bu adların həmin uşaqları müxtəlif bəlalardan hifz edəcəyinə inanmışlar. Düşünürük ki, Dağlar, Dəniz, Qafqaz, Xəzər, Araz, Təbriz kimi adlar bu düşüncənin məhsulu olaraq meydana çıxmışdır.

Oğlanlara verilən Dəmir, Polad, Daşdəmir kimi adlar gələcəkdə bu adların daşıyıcılarının qəhrəman, yenilməz olmaları arzusu ilə bağlı meydana çıxmışdır. Bu da əski çağlarda hər bir kişinin həm də döyüşçü olması ilə bağlı praktik düşüncənin məhsulu sayılmalıdır.

Qızlara verilən Çəmən, Çiçək, Lalə, Bənövşə kimi adlar qadın incəliyinə, qadın gözəlliyinə bir işarə sayılırdı. Elə bu onomastik vahidlərin dilimizdə mövcudluğuna əsaslanaraq, əcdadlarımızın ad seçərkən, çətinlik çəkmədiklərinə haqq qazandıra bilərik. Sanki ulu babalarımız yeni doğulmuşlar üçün ad seçərkən, heç özlərini zora salmamış, təbiətin onlara təqdim etdiyi hazır adları mənimsəyərək, bununla kifayətlənmişlər.

Qədim türk xalqlarının mifik təsəvvüründə hər bir rəngin özünəməxsus, müstəsna dəyəri var idi. Bu rənglər – qara, ağ, qırmızı və sair rəng bildirməkdən əlavə bir çox semantik məna da daşıyırdı. Rənglər türk xalqlarının dünyagörüşündə coğrafi cəhətlərdən tutmuş insanın hiss və duyğularının müxtəlif təzahürü kimi özünü göstərirdi. Rəng bildirən sözlərdən şəxs adlarının yaradılmasında da istifadə olunmuşdur. Ağca, Qara, Qaraca, Sarı kimi adları buna misal göstərə bilərik. Bundan başqa rəng bildirən sözlərdən şəxsin əlamətinə görə, fərqləndirici işarə kimi istifadə olunduğu bəllidir. Bu məqsədlə ağ, qara, sarı, göy, hətta qırmızı sifət bildirən sözləri ləqəb-ayama olaraq şəxsin rəsmi adının qarşısına əlavə edirdilər.

Onomastikamızda azsaylı mənfi semantik yüklü adlar bu gün də qalmaqdadır. Ancaq düşünürük ki, qədim dövrlərdə mənfi mənalı şəxs adları daha çox olmuş, şəxs adlarımız arasında xüsusi çəkisi ilə seçilmiş, tarixi inkişafın sonrakı mərhələlərində bu adların istifadəsi məhdudlaşmışdır. Bəs əcdadlarımız öz övladlarına nəyə görə bu cür adlar qoymuşlar? Yeni doğulan uşağa mənfi mənalı ad seçmənin öz səbəbləri var idi. Onlardan bir neçəsini örnək olaraq burada verməmiz gərəkdir. Məsələn, Altay türkləri 12 illik heyvan təqviminin sonuncu – donuz ilində doğulan uşaqlara mənfi mənalı, qeyri-etik adlar verirdilər. Qədim Altay türklərinin düşüncəsinə görə, donuz ilində doğulan uşaqlar daha tez xəstəliklərə tutulduqlarından, hətta bu ildə doğulan uşaqlar arasında ölüm halları daha tez-tez baş verdiyindən yeni doğulmuş körpələrə məhz mənfi mənalı adlar verilməli idi ki, şər qüvvələr, şər ruhlar onlara yaxın düşüb, sədəmə yetirə bilməsinlər.

Müasir dövrümüzdə nadir hallarda da olsa mənfi semantikaya malik şəxs adlarından istifadə edilməkdədir. Bu adlardan bəzən ənənəvi ailə adları kimi istifadə edilir, yəni əcdadın adı nə qədər mənfi mənalı olsa da, onu ailənin yeni doğulmuş üzvünə verməklə əcdadın adına, ruhuna ehtiram ifadə olunur. Digər tərəfdən də bu cür adların uşağa qoyulması qədim inanclarla bağlı az-çox yaşamaq hüququ qazanır.

Antroponimikamızda Dilən, Dilənçi, Yolçu, hətta Yetim adlarının olması danılmaz faktlardır. Yeni doğulanlara bu tipli adların qoyulması, adətən, qədim inanclardan qaynaqlanırdı. Oğlu olmayan və ya doğuşdan sonra körpə ikən ölən ailələr gələcəkdə doğulacaq oğullarına bu adlardan birini qoyacaqlarını əhd edib, dilək tuturdular. Elə Dilən, Dilənçi adları da məhz "dilə" felindən yaranmış adlardır. Düzdür, bu söz başqalarının hesabına tüfeyli həyat yaşayan sosial qrupun fəaliyyəti nəticəsində sonradan mənaca genişlənmişdir. Mətləbdən uzaq düşmədən deyək ki, oğlu olmayan və ya olub durmayan ailənin üzvlərindən biri – nənə, baba, ata, ana dünyaya gələcək növbəti oğlan uşağının doğulmasından əvvəl əhd edib, dilək tutur ki, ailənin yeni üzvü oğlan doğulsa və sağlam ömür sürsə, yeddi ailədən, yeddi məhəllədən, hətta yeddi kənddən dilənəcəm və uşağa Dilən, Dilənçi adlarından birini verəcəm. Qədim inanclardan çıxış etsək, bu, yeni doğulmuş uşağın şər qüvvələrdən, bəd ruhlardan qorunması məqsədi güdmüşdür. Görünür, insanlar uşağa bu cür adlar verməklə şər qüvvələri, bəd ruhları çaşdıracaqlarını güman etmiş, dilənçilik statusunu qəbul etdiklərini bildirmək istəmişlər. Şər qüvvələrin gözəgəlimli nəsnələrə, insanlara daha çox yaxınlaşdığını düşünən əcdadlarımız bu qüvvələrə özlərini yazıq, yararsız kimi təqdim edərək, onları rəhmə gətirəcəklərini, bununla da yeni doğulmuş körpəni xilas edəcəklərini ifadə etmişlər. Sözarası qeyd edək ki, bu cür dilənçilik etmiş ailələr eyni məqsədlə dilənən şəxslərə "özümüz dilənmişik" – deyərək, onları əliboş yola salmalı idilər. Əski təsəvvürlərə görə, onlar məhz belə hərəkət etməli, özlərinin dilənçilik statuslarını qorumalı idilər ki, şər qüvvələr, bəd ruhlar, xəstəlik, ölüm onların dilənçiliklə əldə etdikləri uşağa yaxın düşməsin.

Sonda zəruri bir qeydimiz də var. Tarixi-etnoqrafik qeydlər adı altında təqdim etdiyimiz bu yazıları xalqın yaddaş saxlancında yaşayan inamlarımızı tutalğac, dəlil kimi götürərək, araşdırmışıq. Dünya xalqlarının bu və ya buna bənzər örnəklərini burada vermək istəməmiz uzunçuluqdan yayınmağa çalışmamızla bağlıdır. Elmi ədəbiyyatda bir müəllifin əsərindən digərinin əsərinə ötürülən iqtibasları yazımızın gözünə qatmaqdan qaçmaq cəhdlərimizi təvazökarlıqdan uzaq saymayacağınız düşüncəsi ilə yazımızı nöqtələyirik.

***Afiq MUXTAROĞLU***



# HƏR ŞEY QƏDƏRİNDƏ GÖZƏLDİR, ELƏMİ?

Anladığım qədər dahi Nizaminin əsrlər öncə dediyi izafi suyun zərərini hələ də tam dərk etməmişik. Uşaqlıqda, gənclikdə fəxr etdiyim, maraqla izlədiyim adətlərimizin ifrat faciəsini indi ailə qadını olaraq daha dərindən dərk edirəm.

Yəqin çoxlarımız gördüyümüz turistlərə baxıb ən azından düşünmüşük ki, onlar bizdən yaxşı yaşayırlar. İl boyu qazanclarından artırıb Avropadan buralara gəzməyə gəlirlər. Bizim qazancımız da bu aydan o aya güclə çatır. Əminəm, düşünmüsünüz. Adətimiz üzrə günahı özümüzdə yox, başqasında axtaracağıq. Görəsən kimsə düşündümü o turist bir ildə neçə xeyirə-şərə gedir, neçə evi var, nə qədər qızılı var və s. Doğum günləri, uşaq gördü, adqoydu, əsgərlik bitdi, tələbə oldu, diplom aldı, nişan, toy, gəlin gördü, yubileylər, maşın aldı, nişanlı qızı görnəyə getmələr və s. Ümumiyyətlə, nəmər yazdırmaq ifadəsini özümüzdən başqa kimsə anlamaz, əminəm.

Elə bunları düşünərkən əlimə bir qələm aldım. İl ərzində getdiyim xeyir işlərinə çəkdiyim xərci yazdım. Nəzərə alsaq ki, çox da aktiv xeyir-şər adamı deyiləm, yalnız yaxınlara gedirəm və onu da nəzərə alsaq ki, belə bir "dasqı" var: tək adam – 50, cüt – 100 lari. Vallah, elə mənim xeyirə-şərə çəkdiyim xərclə yaxşıca ailəliklə istirahətə getmək olarmış.

Deyəcəksiniz, əcnəbilər bizdən də maraqlı "parti"lər edirlər. Əlbəttə, edirlər, niyə də etməsinlər. Bunun nəyi pisdir. İnsan əlamətdar anlarını xatırlamalıdır, amma bir var bir tort və şampanla, gələnlər ya təbrik məktubu, ya da suvenir hədiyyə edir, bir də var "dasqı" ilə...

Yerli milli yeməklərimizdən Borçalı pörtdəməsi ən sevdiyim yeməkdir, inanın, toylarımızda pörtəmənin yerinə xəcalət çəkirəm. Cürbəcür salatların, qızartma, bozartmaların yanında küskün qalır. Çoxluğun içində itib batır. Xüsusən də restoran toylarında menyu sayına barmaqlar çatmır, ən pisi də odur ki, yeyilməyən yeməklərimiz zibilliyə atılır. Nə qədər günah, deyilmi? Tək toydamı? – Bütün şənlik yığıncaqlarımız belədir.

Yaxınlarda bir qohumum kiçik toy etdi. Mərhələlərə diqqət edək. Bir gün mən yoldaşımla gözaydınlığına getdik, əlbəttə, yüngül şirinliklə. Getməmək olmazdı axı, mərifətsizlik sayılardı. Həmin gün 4-5 ailə də vardı. Plov, pörtdəmə, toyuq, dolma bişirmişdi. Mətbəxə keçib xanıma dedim: "Ayıb oldu, nə zəhmət çəkirsən, bir stəkan çay içib gedəcəyik". Dedi: "Elə getsəniz ayıb olar. Narahat olma, bir aydır hər gün evimiz belədir. Bax, mütləq birigün ciyər axşamına gəlin, yoxsa inciyərik".

Əlbəttə, getdik, yoxsa saymamazlıq sayılacaqdı. Ciyər axşamında bəlkə 100 adam var idi – qohum, qonşu... Səhəri 500 adamlıq toy süfrəsi aşıb-daşan bir toy oldu. Birigün uşaq kəsildi, üç gün sonra küldən çıxarıldı, bir həftə sonra kirvə qonaqlığı, sonra da kirvəliyin cavabını qaytarma... Vallah, təsvirdən özümün başım hərləndi.

Deməli, qohumum birinci özünə əziyyət verdi. Bir ay gəlib-gedənlərin əziyyəti, getməmək olmazdı, həm əvəz qaytarırsan, həm də diqqət göstərirsən. Mən inanmıram oradan xeyir götürmək olur, bildiyim odur ki, qohumum həm özünə maddi çətinlik yaratdı, həm gələnləri xərcə saldı, həm də özünü borclu edir. Axı az sonra bu ardıcıllıq digər qonşuda, qohumda olacaq.

Təhlil etmədən onu soruşum, görüm o turistlərin heç belə lazımsız adəti və ya xərc çəkdiyi səbəbi varmı?

Onlar da xaç suyuna çəkirlər, bu bir inanc, amma ifratsız, izafi xərcsiz. Hələ ki burada dayanmaq istəyirəm. Bunu da deyim ki, mənim qohumum bu pulla Antaliyada bir ay qala bilərdi, amma bunun üçün avropalı olmaq lazım idi.

**_Esmira ƏLƏKBƏRLİ_**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# DOSTLUQ



Dostluq bir insanın həyatında ən gözəl və eyni zamanda ən mürəkkəb bağlardan biridir. O sanki bir nağıl kimi başlayır, zamanla həyatın bütün çalarlarını özündə əks etdirir. Sevgilər, xəyanətlər, sevinclər, kədərlər, ölümlər və barışlar – hər biri dostluğun bir hissəsinə çevrilir.

Dostluq güvənlə toxunmuş bir bağdır. Başlanğıcda hər şey saf və gözəldir: iki insan bir-birinin sirdaşı olur, xəyallarını, sevinclərini və hətta qorxularını paylaşır. Hər baxışda inam, hər sözdə dəstək hiss olunur. Dostlar bir-birinə həyatın çətinliklərini aşmaqda kömək edir, ən xoşbəxt anlarını birlikdə yaşayırlar. Onlar üçün dünya sanki daha parlaqdır.

Amma həyat həmişə yalnız xoşbəxtlik gətirmir. Xəyanət dostluğun ən ağır zərbələrindən biridir. Bir baxış, bir hərəkət və ya bir kəlmə illərlə qurulan etibarı bir anda sarsıda bilər. O anda dostluq güzgü kimi çatlayır. Çox çalışılsa belə o bağ heç vaxt əvvəlki kimi olmur. Amma bəzən insan nə qədər xəyanətə uğrasa da, bağışlamaq və davam etmək istəyir. Çünki dostluq eyni zamanda dərdləri və səhvləri qəbul etməyi tələb edir.

Dostluq təkcə xəyanət və ağrıdan ibarət deyil, içində sevinc və xoşbəxtlik dolu anlar da çoxdur. Dostlar birlikdə o qədər gülür, o qədər sevinir ki, həyatın ən gözəl anlarını yaşayırlar. Onların paylaşdığı xatirələr ömür boyu unudulmur. Amma xoşbəxtlik qədər, kədər də dostluğun bir hissəsidir.

Sonra ölüm gəlir... Dostluğun bir parçasını, hətta bəzən bütün bağını özü ilə aparır. Ölüm dostların qəlbində sağalmayan yaralar buraxır. Dostlar sevdiklərini itirir və bu boşluğu heç nə doldura bilmir. Amma hər dəfə xatirələrdə o itirilənlər canlanır, yaşanmış günlərin izi qəlblərdə qalır.

Dostluq təkcə bir hiss deyil, bir həyat dərsidir. O, insanı güldürür, ağladır, böyüdür və dəyişdirir. Dostluğun içində həm sevinc, həm qəm, həm sevgi, həm də xəyanət var. Bəzən o, həyatın özündən də mürəkkəb olur. Amma hər nə olursa olsun, dostluq insanın ruhunda unudulmaz bir iz buraxır.

Dostluq xoşbəxtliklə başlayan, xəyanətlə sarsılan, ölümün ağır çətinliyi ilə sınan, amma yenə də xatirələrdə yaşayan bir bağın izləridir. Həyat davam edir, dostluğun izi qəlblərdə əbədi qalır.

**_Raul BƏDƏLOV_**
*Qardabani 3 nömrəli məktəbin şagirdi*

# AĞA MƏHƏMMƏD ŞAH QACARIN TİFLİS ŞƏHƏRİNƏ HÜCUMU

**ALEKSANDRE ORBELİANİ**



*(əvvəli ötən sayda)*

Bunun əvəzinə çar İraklinin düşmənləri kirimişcə arxadan danışırdılar: Çar İrakli ilə başqa söhbət olmayıb. Məsləhət-tövsiyə əvəzinə sicilləmələrdən danışırdılar, çar İrakli isə sanki yatmışdı. Onda, iyirmi dörd saat ərzində üç saat yatırdı, başqa vaxt hər zaman işləyirdi. Eyni zamanda gizli düşmənləri var idi və nələr uydurmurdular... Daha nə deməliyik o anlaşılmazlıqlar barədə və o satqın İskariotlar barədə? *(Yəhuda İskariot – İncil personajı. Xristian ənənəsinə uyğun olaraq İsa peyğəmbərin 12 şagirdindən (həvarisindən) biri – Tərcüməçi).*

Çar İraklinin bu fikrindən sonra əyanlar soruşdular: "Bu qədər ki, qoşun buyurur, haradan toplayacaq?"

Çar dedi: "Mənə yenə də məlumat veriblər ki, iyirmi beş min ləzgi qoşunu bizi xilas etmək üçün hazırdır və sən təkrar adam göndərsən, dərhal gələcəklər *(Car-Balakən və Dağıstanın irəlidə olan adamları əvvəllər çar İraklinin hüzuruna böyük vədlə gəliblərmiş: İndi isə qulluğunuzdayıq, ağıla gəldik. Onunmu vaxtı idi, Gürcüstanı dağıtdılar. Hər halda, təbii ki, yaxşı idi. Bu son dövr üçün, ancaq bunu da düşmənlər bir daha etmədilər).* Kaxeti və Kizixidən on altı min döyüşçü gələcək. İmeretidən on min, Kartlidən on min, Araqvidən və Çərkəzdən *(Çerkeziyadan – Tərcüməçi)* on min, bu səbəbdən oğlum Almasxana əmr etdim ki, Çərkəzə getsin (Xaç suyuna çəkilmə adı Vaxtanq) və mənim naməm çatan kimi dərhal onların (Kabardino) ordusu ilə gəlsin; dolaşıb Araqvi ordusunu da özü ilə gətirsin. Qazax-Borçalıdan, Şəmşəddildən də on min döyüşçü gələcək. Onlar yaxşı ordu və yaxşı igidlər olacaqlar *(O zaman Gürcüstanın camaatı tamamilə gözəl və mübariz idi, çünki daim müharibədə idilər və buna görə də hamısının yaxşı silahı var idi. Tatar mouraviliyi kəndləri yaxşı atlı döyüşçülərlə və başqa piyadalarla çıxış edirdilər. Kizix və Saqareco tərəfdən bütöv süvari qoşun çıxırdı. Gürcüstanın bu atlı camaatının hamısının qəşəng atları var idi).* Bundan əlavə, Rusiya hökmdarından iki minlik rus süvarisi və altı topunu istəyirəm. Mənə bundan artıq rus süvariləri lazım deyil, bunu da ona görə istəyirəm ki, bizim qoşunlar onları görəndə özlərini daha çox göstərsinlər, yoxsa mən onları döyüşə qoşmayacam. Nə bilim, necə iki min süvari və altı top göndərməsin? – Rusiyaya sadiqlik üçün bütün Osmanlını və Qızılbaşı özümə ayıq düşmən etdim: Rusiya ilə necə dostluq edə bilərsiniz? Rusiya ilə niyə dostlaşdım? Və Rusiya hökmdarı bu azacıq yardımı etmir? – Bu Qafqaz dağlarının o tərəfində onun qüdrətli orduları bizim qonşuluğumuzda durduğu bir halda, azacıq yardımla Rusiyadan heç nə əksilməyəcək, belə ki, bizim üçün böyük bir müavinət olacaq. Bu yaxın vaxtlarda hökmdarla vasitəçilik etmək üçün general Qudoviçin yanına iki tavadı göndərdim *(Qudoviç bu zaman Qafqaz liniyasında (xəttində, müəllif belə işlədir) öz qoşunları ilə dururdu – Tərcüməçi).* İki min süvari ilə, altı topla yardım etsin və şəksiz, yardım da edəcək. Ona görə də Rusiya hökmdarından kim gəlirsə, mənə böyük əminliklə Rusiya hökmdarının əvəzinə söz verirlər: "Məndən çox yaxşı şeylər gözləyin". Ona görə də indi mən bunların hazırlığı üçün əmr vermişəm ki, dörd tərəfdən un, iribuynuzlu mal-qara bu şəhərdə ordunun ruzisi üçün, onların qidası üçün gələcək. Mən bu ordunu bir ay saxlayacağam və artıq daha lazım olmayacaq. Bildiyimə görə, xəbər gəlir, Ağa Məhəmməd şah Qacar gələn il qoşunu ilə gələcək və avqustun sonunda, ya da sentyabrın əvvəlində bura girəcək. Bu səbəbdən elə etməliyik ki, bizim qoşunlar avqustun 20-də bura daxil olsunlar. Bu şəhərdən kənarda olanlar burada düşərgə salsınlar, mən hansısa qoşunu harasa göndərənə kimi. Ümid edirəm ki, Ağa Məhəmməd şah Qacarın başına elə iş açacağıq ki, onun zəngin ordusu əlimizə keçsin. Onların vasitəsi ilə də bizim qoşun əldə olunan qənimətlə bol-bol təmin olunsun. Belə ki, bizim qoşunun heç bir əsgəri qənimətsiz qalmasın.

Çar İraklidən bu planı eşidənlər hamısı böyük məmnuniyyətlə oradan çıxdılar, amma heç bilmirdilər ki, nə qədər torpağa soxulmuş ilan çar İraklini və Gürcüstanı zəhərləmək üçün sürünürdü, belə zəhərlə də Gürcüstan xilas ola bilməzdi. Hər vəchlə saraya da sürünərək soxulurdular. Özləri orada da məsləhətdə oturardular. Zaman yetişdi, indi İrandan ona xəbər gəldi: "İndi şəksiz, gəlmək niyyətindədir, amma o, sənin yanına səfir göndərir".

Ağa Məhəmməd şah Qacarın səfiri də gəldi və gəlişinin səbəbi yenə belə oldu: "Rusiyaya sədaqətliliyindən əl çək". Gürcülər Rusiya ilə eyni dinə qulluq etdiyindən bu cavabla səfiri yola saldı: "Nəinki Ağa Məhəmməd şah Qacar öz qoşunu ilə, bütün Asiyanın qoşunları belə bizim üzərimizə gəlsə, hətta onda da Rusiyaya sadiqlikdən əl çəkməyə yenə vadar edə bilməzlər". Eyni zamanda hər tərəfdən qoşunların böyük ümidverici xəbərləri gəldi, lakin heç bir yerdən görünmədi, hər yerdə cansız əcinnələr dayanmışdı.

Kizixidə yığılan doqquz mindən çox qoşunu Siqnaxinin sonunda dağıtdılar. Pşav-Xevsureti, Tuşeti və Kaxeti qoşununu heç də yığa bilmədilər *(Çar İrakli öz minbaşı tavad Abel Andronikaşvilini axırıncı dəfə Siqnaxiyə göndərəndə: Kaxeti, Kizixi və ləzgilərin qoşununu təcili mənim yanıma göndərin. Mən o qocalmış Andronikaşvilidən eşitdim ki, məni də bir daha buraxmadılar və nə ki yığılmış qoşun var idi, onu da dağıtdılar. Heç bir vəchlə başqaları da yığa bilməzdi.*

*Bu sözdən sonra soruşdum: – "Çar İraklidən şahzadə Giorgiyə namə var idi, yoxsa yox?"*

*– "Necə yoxum idi, fəqət, şahzadə Georgi imkansız idi, görə bilmədim və mouravi Revaz (onda bu Andronikaşvili daha mouravi deyildi, onu adi olaraq belə çağırırdılar, bu, gürcülərin adəti idi) özünü doğrultdu: "Mən müraciət edərəm, imkansızdır" (Onun bacısı, şahzadə Georginin həyat yoldaşı həmin vaxtlar dünyasını dəyişmişdi).*

*– "Məgər o namənin cavabı ilə bağlı sizə məlumat vermədilər?"*

*– "Heç nə başa düşmədim. Nəhayət, mouravi Revaz mənə dedi: "Şahzadə Giorgi sənə buyurdu ki, evinə get, orada qal, heç yerə getmə". Və mən getdim. Ondan sonra eşitdim: "Mouravi Revaz özünün bir neçə adamı ilə qoşuna, çar İraklinin yanına getdi". Axır vaxtlarda onun əhvalatlarını, şeytanlığını sizə söyləyəcəyəm).* İlkin olaraq İmeretidən çar Solomonun özü gəldi (Çar İraklinin qızı Helenin oğlu) və özü ilə üç min döyüşçü gətirdi, lakin qalan yeddi min nəfər isə daha gəlmədi, orada da çar İraklinin düşmənləri var idi. On min Kartli qoşununun toplanmasına da mane oldular. Çərkəz tərəfdən əmr verəndə, heç nə etmədilər. On minlik Qazax-Borçalı və Şəmşəddil qoşununu da artıq yığa bilmədilər. Qafqaz liniyasının generalı Qudoviçdən də ümid kəsildi.

Bu qəribə fikri (planı) eşidən və şübhəsiz ki, onun həyata keçəcəyinə ümid edən çar İrakli dörd min öz döyüşçüsü ilə, üç min İmereti qoşunu ilə və onların arasında kiçik çar Solomon ilə birlikdə qaldı.

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə edən:
***Mirzə MƏMMƏDOĞLU***

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 YANVAR
2025-Cİ İL
№ 01 (218)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BU İL GÜRCÜSTANDA STRATEJİ ƏHƏMİYYƏTLİ BİR NEÇƏ YOLUN TİKİNTİSİ HƏYATA KEÇİRİLƏCƏK



Bu il Gürcüstanın tranzit rolunun inkişafı prioritet olaraq qalır. 2025-ci ildə Orta Dəhlizin Gürcüstan, Azərbaycan, Ermənistan və Türkiyə sərhədlərini birləşdirən hissələrinin tikintisi faktiki olaraq başa çatacaq.

Bu haqda məlumat Gürcüstanın Regional İnkişaf və İnfrastruktur Nazirliyinin cari il üçün tədbirlər planında öz əksini tapıb. Planda Batumi dolama yolunun tamamlanması, Tbilisi ilə Rustavi arasında yeni avtomobil yolunun tikintisi, Orta Dəhliz quru marşrutunun və Tbilisi ilə Kaxeti regionu arasında yüksəksürətli marşrutun tikintisinin başa çatdırılması nəzərdə tutulub. Bildirilir ki, bu il Gürcüstanın Orta Avtomobil Dəhlizinin inkişafına xüsusi diqqət yetirilməsi planlaşdırılır.

Layihəyə əsasən, bu il Türkiyə ilə sərhədə aparan yenilənmiş Batumi-Sarpi yolu inşa olunacaq. Bundan əlavə, bu il Batumi dolama avtomobil yolunun hissələrinin tikintisi başa çatdırılacaq. Kobuleti kurort kəndi ətrafında dolama yolun genişləndirilməsinə başlanılması planlaşdırılır. Həmçinin 2025-ci ildə hakimiyyət Tbilisi ilə Gürcüstanın iri sənaye mərkəzi Rustavi arasında 4 zolaqlı avtomobil yolunun tikintisini başa çatdırmağı planlaşdırır ki, bu da şəhərlər arasında yarımsaatlıq yolu qısaldır.

Anakliya limanına giriş yolunun, Lilo dolama yolunun, qərbdən Tbilisiyə yeni girişin və Tbilisidən qərbə yeni çıxışın tikintisinə başlanılacaq. Bundan başqa, Kaxeti istiqamətində avtomobil yolunun tikintisi davam etdiriləcək. Badiauri-Çalaubni, Qurcaani (Çumlaki) - Telavi və Laqodexi dolama yollarının tikintisinə başlanılacaq.

## 2003-2012-Cİ İL HAKİMİYYƏTİNİN FƏALİYYƏTİNİ ÖYRƏNMƏK ÜÇÜN MÜVƏQQƏTİ İSTİNTAQ KOMİSSİYASI YARADILACAQ



Gürcüstanda 2003-2012-ci illərdə hakimiyyətdə olan rejimin fəaliyyətini öyrənmək üçün müvəqqəti istintaq komissiyası yaradılacaq. Cinayətkarların cəzalandırılmasını təmin etmək üçün hazırlanacaq hesabat prokurorluğa təqdim olunacaq. Bu barədə parlament çoxluğunun lideri Mamuka Mdinaradze məlumat verib.

Onun sözlərinə görə, müvəqqəti istintaq komissiyası parlamentin yaz sessiyasının ilk həftəsində yaradılacaq. Komissiya rejimin və rejimin siyasi məmurlarının 2003-2012-ci illərdəki fəaliyyətini öyrənəcək.

“Gürcüstanda 2003-2012-ci illərdə hakimiyyətdə olduğu dövrdə Gürcüstan dövlətinə və gürcü xalqına qarşı çoxlu cinayətlər törədən radikal müxalifət var. Bu siyasi qüvvə 2012-ci ildən indiyədək Gürcüstan siyasətində təhrikçi funksiyasını yerinə yetirərək Gürcüstanın milli maraqlarını açıq şəkildə qarşı-qarşıya qoyur və Gürcüstanda sağlam siyasi sistemin qurulmasına həlledici manea yaradır. Lakin bu siyasi qüvvənin mahiyyətini nəzərə alsaq, aydındır ki, nəzəri cəhətdən hakimiyyətə qayıdışında o, şübhəsiz ki, yeni münasibət və enerji ilə eyni tipli cinayətləri törədəcək və bunun üçün də ona yaşıl işıq yandırılacaq. Cəmiyyətin əhəmiyyətli bir hissəsi yaşlarına görə qanlı “Milli Hərəkat” rejiminin törətdiyi cinayətlərin şahidi olmayıb və bir çox insan bu cinayətləri ən azı emosional müstəvidə unudub. Cəmiyyət avtoritar rejimin törətdiyi cinayətləri daim xatırlamalıdır ki, gələcəkdə təkrarlanmasın”, – deyə Mdinaradze vurğulayıb.

## GÜRCÜSTAN MİLLİ BANKININ BEYNƏLXALQ EHTİYATLARI AZALIB



Gürcüstan Milli Bankının beynəlxalq ehtiyatları 2024-cü il dekabrın 31-nə 4,45 milyard dollar təşkil edib. Bu barədə Gürcüstanın Milli Tənzimləyicisi məlumat yayıb.

Məlumata görə, ötən ilin noyabrında valyuta ehtiyatları 323,6 milyon dollar artıb. Analitiklərin fikrincə, ehtiyatların həcminin dəyişməsi hökumətin və Gürcüstan Milli Bankının valyuta bazarındakı əməliyyatları ilə bağlıdır. Ümumiyyətlə, ötən ilin yanvar-dekabr aylarında Gürcüstan Milli Bankının beynəlxalq ehtiyatları 562,1 milyon lari azalıb.

Gürcüstan Milli Bankının beynəlxalq ehtiyatları 2023-cü il avqustun 31-də tarixi maksimuma çataraq 5 milyard 436,8 milyon dollar təşkil edib. 2023-cü ildə beynəlxalq ehtiyatlar 101,5 milyon lari, 2022-ci ildə isə 628,1 milyon dollar artıb.

Beynəlxalq ehtiyatların strukturunda xarici valyutaya çevrilmiş beynəlxalq ehtiyatlar Milli Bankın ehtiyatlarının əsas hissəsini təşkil edir və 3,4 milyard dollardır.

## GÜRCÜSTANDA DOLLAR KREDİTLƏRİNİN VERİLMƏSİ QAYDASI SƏRTLƏŞDİRİLİR



Gürcüstan Milli Bankı yanvarın 1-dən dedollarizasiya siyasətini sərtləşdirir və lari ilə kreditlərin verilməsi üçün yeni limit tətbiq edir.

Qüvvəyə minən qaydalara əsasən, yanvarın 1-dən etibarən kredit təşkilatları xarici valyutada 500 min lariyə qədər (dollar ekvivalentində 177 min dollardan bir qədər çox) kredit vermək hüququna malik olmayacaqlar.

500 min lari məbləğində kredit limiti eyni valyutada tam təminatlı kreditlərə, Gürcüstanda qeydiyyatda olmayan hüquqi şəxslərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən kreditlərə şamil edilməyəcək.

Bununla belə, lari və dollar kreditləri üzrə faiz dərəcələri dəyişməz qalır.

2023-cü ildə Milli Bank 300 min laridən yuxarı limitli kreditlər üçün hedcinq tətbiq etmək qərarına gəlib, mayda isə limiti 400 min lariyə qədər artırıb.

Milli Bankın məlumatına görə, son tədbirlər fonunda dollarizasiya əhəmiyyətli dərəcədə azalıb. Lakin dollarizasiya və onunla bağlı struktur risklər maliyyə sektorunun əsas problemlərindən biri olaraq qalır.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 23 MİLYARD DOLLARI ÖTÜB

Gürcüstanın xarici ticarət dövriyyəsi 2024-cü ildə 23,4 milyard dollar təşkil edib, bu da 2023-cü illə müqayisədə 8 faiz çoxdur. Bu barədə Gürcüstan Milli Statistika Xidməti məlumat yayıb.

Məlumata görə, ötən il Gürcüstanın xarici ticarətində ixracın həcmi 6 560,4 milyon dollar olub ki, bu da 2023-cü illə müqayisədə 7,8 faiz çoxdur. İdxalın həcmi isə 2023-cü illə müqayisədə 8,1 faiz artaraq 16 866,7 milyon dollar olub.

Hesabat dövründə Gürcüstanın xarici ticarətində 10,3 milyard dollar həcmində mənfi ticarət saldosu yaranıb ki, bu da 2023-cü illə müqayisədə 8,3 faiz çoxdur. Məlumat üçün qeyd edək ki, 2023-cü ildə Gürcüstanın xarici ticarət dövriyyəsi 2022-ci illə müqayisədə 12,5 faiz artaraq 21,5 milyard dollar təşkil edib.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.